# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 65** **Bakı şəhəri, 1 mart 2022-ci il**

***"Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar.tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44, № 6, maddə 589, № 12, maddə 1118; 2011, № 1, maddə 66, № 9, maddə 854; 2013, № 2, maddə 197, № 10, maddə 1222; 2015, № 8, maddə 962; 2018, № 3, maddə 592, № 6, maddə 1368; 2019, № 4, maddə 786; 2021, № 1, maddə 96, № 11, maddə 1286) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Cədvəlin 2-ci hissəsinə "Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların" sözləri əlavə edilsin.

**2.** Cədvəlin 3-cü hissəsində birinci halda "rəhbərləri və" sözləri "rəhbərlərinin" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***